*Noyabrın 22-si tanınmış Amerika yazıçısı Cek Londonun anım günüdür. Parafraz yazıçı haqqındakı araşdırmanı təqdim edir:*

# Amerikanın ilk və yeganə proletar yazıçısı: Cek London

**Cek London gənclik illərindən etibarən bir çox işlərdə özünü sınayıb. Fabrikdə işçi, dənizdə gəmiçi idi. Qızıl axtarmaq üçün Alyaskaya gedib. Cek Başladığı heç bir işdən, etdiyi səyahətdən, əslində, əliboş dönməmişdi.**

**Hekayələrini barlarda, ucuz otel otaqlarında, qatar vaqonlarında yaddaşına həkk edib. Cəmiyyətin aşağı təbəqələrinin əzilənlərin qələmi idi. 40 illik qısa həyatına 50-dən çox əsər sığdıran məşhur yazıçı 101 il öncə bu gün həyata gözlərini yumub.**

### *İstənilməyən övlad*

Cek London 12 yanvar 1876-cı ildə San-Fransiskoda doğulub. Musiqi müəllimi olan anası Flora Velmanın astrologiya professoru Villiam Çaney ilə münasibəti var idi. 1875-ci ilin iyununda San-Fransiskoda işıq üzü görən "Xronikl" qəzetinin xəbərinə görə, Çaney uşağı qəbul etmədikdə gənc qadın intihara cəhd etmişdi.

Yaşadığı travmanın təsiri ilə Floranın əsəbləri alt-üst olmuşdu. Xoşbəxtlikdən nə anaya, nə də körpəyə zərər dəymədi. Flora oğlunun doğumundan səkkiz ay sonra Con London ilə evləndi.

### *Səkkiz yaşından etibarən işləməyə başlayan uşaq*

Cekin qayğısını uzun müddət qaradərili Vircinia Prentsis çəkib. Ailəsi bir çox işlə məşğul olsa da, uğur qazana bilməyib. Bu səbəbdən Cekin uşaqlıq illəri yoxsulluq içində keçib. Kiçik yaşlarından etibarən bir çox işlərdə işləməyə başlayıb. Hətta sonrakı illərdə C.London: "Mən uşaqlıq nədir bilmədim" deyir. Hələ səkkiz yaşında ikən qəzet satmağa başlayır daha sonra fermada işləyir. 13 yaşında "Hikmot" Konserv Zavodunda işə düzəlir. Sonra süd anası Prentsisdən borc pul alaraq özünə kiçik qayıq alır və qanunsuz istridyə ovuna başlayır.

### *Kitablar Cek Londonun ticarət vasitələri kimi*

Beş yaşındaykən özü yazıb-oxumağı öyrənmişdi. Təhsilində fasilələr yaransa da, Oaklend kitabxanasının daimi oxucusu idi. Şair, yazıçı və bir müddət kitabxanaçı olan İna Donna Kulbrisin onun üzərində əməyi çox idi. Kulbrisin köməyi ilə Cek macəra və kəşf kitabları ilə tanış oldu. Gecə-gündüz "Madam Bovari", "Anna Karenina" kimi klassik əsərləri oxudu.

Oxumağa olan həvəsi gələcəkdə də davam edir. C.London maddi cəhətdən vəziyyətinin yaxşı olduğu vaxtlarda 15 min cildlik şəxsi kitabxana yaradır və buraya "Mənim ticarət vasitələrim" deyir.

### *Dəmiryolu avaralığından liseyə keçid*

17 yaşında Yaponyaya getmək üçün suiti ovlayan gəmiyə yazılır. Geri qayıtdıqdan sonra bir neçə işə girib çıxır, sonralar isə dəmiryolundakı avaralara qoşulur. Amerikanı gah qatarla, gah da piyada gəzir. Kanadada yerləşən Niaqara həbsxanasında 30 gün məhkumluq həyatı yaşayır.

19 yaşında Oaklend liseyinə adını yazdırır. Burada "Aegis" adlı lisey jurnalına dəniz səyahətləri zamanı başına gələn əhvalatlardan bəhs edən "Yaponiya sahillərində tayfun" əsərini yazır.

### *Qızıl uğrunda tökülən dişlər*

Bir il sonra bütün yay hazırlaşıb, Berkli Universitetinə qəbul olur. Lakin maddi çətinliklər onu tərk etmirdi. Bu səbəbdən təhsilini yarımçıq qoymalı olur. Heç vaxt diplom ala bilmir. Lakin burada Çarlz Darvin və Fridrix Nitsşenin əsərləri ilə tanış olur.

Artıq kasıblığın onu tamamilə əldən saldığı vaxtda 25 iyul 1897-ci ildə C.London Klondikə qızıl axtarışlarına qatılır. Bu səyahətdə səhhəti pisləşir və sinqaya (diş əti xəstəliyi - red.) tutulur. Bir müddət sonra diş ətləri şişir və xəstəlik ucbatından 14 dişini çıxartdırmalı olur. Sözügedən səyahət illər sonra ona "Əcdadların harayı", "Tonqal" kimi əsərlərində ilham mənbəyi olur.

### *Məşhur jurnallar ilə gələn şöhrət*

1898-ci ildə Oaklendə qayıtdığında yazdıqlarını çap elətdirməyə çalışdığı o günləri illər sonra "Martin İden"də danışır. Nəhayət, yazıları Alyaska hekayələri adı altında ədəbiyyat jurnalı "Atlantik Mansli"də böyük diqqət görür. Bu hekayələri 1900-cü ildə çap elətdirdiyi ilk kitabı "Canavar oğlu"nda toplayır.

Hobbi olaraq yazmaqdan və başqa işlərdə çalışmaqdan yorulmuşdu. Bu səbəbdən 1900-cu illərdəki modern çap texnikaları sayəsində çoxalan məşhur jurnallar C.Londona məlhəm kimi gəlir. Artıq dayanmadan yazırdı. Nəhayət, 1903-cü ildə "Saturday Evening" jurnalında çıxan "Əcadadların harayı" Cek Londonu məşhurlaşdırdı.

### *Sevimli küçüyün vəhşiyə dönüşü*

"Əcdadların harayı" Klondikdə qızıl axtarışlarındakı ev itinin vəhşi təbiətdə yaşadığı dəyişikliklərdən bəhs edir. Hadisələr Bakın dilindən danışılır.



C.Londona görə hərislikdən gözləri heç nə görməyən insanlar da heyvanlar kimi hər şəraitə uyğunlaşır. Və ya tam əksi. Uzun illər hadisələri bir itin gözündən danışdığı üçün kitab uşaq ədəbiyyatı nümunələri arasında olur. Bu günə qədər dəfələrlə roman əsasında film və seriallar çəkilib.

### *Baş rolda canavar*

Üç il sonra canavar sürüsünün macəralarından bəhs edən "Ağ diş" rəflərdə öz yerini almışdı. C.London həyatında ən sevdiyi heyvan olan canavarı baş qəhraman seçmişdi. Bəzi məktublarını "Canavar" deyə, imzalayan yazıçı yenə qızıl axtarışları zamanı baş verən hekayələrdən bəhs edirdi. Dəfələrlə haqqında film çəkilən roman baş qəhrəmanı Etan Hokinin olan 1991-ci ildə çəkilən film ilə haqqında da uzun müddət danışıldı.

C.Londonun 1907-ci ildə çap etdirdiyi "Adəmdən əvvəl" bizi insanlıq tarixinin əvvəllərinə apardı. Bu romanda Darvin nəzəriyyəsini dəstəkləyirdi. Yuxuya gedən ərəfədə niyə sanki hündürlükdən düşübmüş kimi diksindiyimizi ondan öyrəndik. Budaqdanbudağa atlanıb mağaralarda yaşayan əcdadlarımızdan bəhs edən romanda yazıçı uşaqkən gördüyü yuxuları minlərlə il əvvəl əcdadlarının başına gəlmiş hadisələrlə əlaqələndirirdi.

Cek Londonun "Dəmir daban" adlı əsəri öz dövrünü çox qabaqlamışdı. Yazıçı II Dünya müharibəsi ərəfəsindəki faşizmin ayaq səslərini eşitmişdi. Onun yaratdığı üç yüz illik "Dəmir daban" dövrü bugünün dünyasına işıq salacaq qüdrətdə idi. Məşhur yazıçı bir tərəfdən kapitalizmin necə işlədiyindən bəhs edərkən, digər tərəfdən ABŞ-da oliqarx tiranlığın necə inkişaf etdiyindən də danışırdı.

### *Ey proletar, sinfini sev!*

İki illik dəniz səyahətindən qayıdan C.Londonun 33 yaşında qələmə aldığı "Martin İden" yazıçının öz həyatından bəhs edirdi. Avtobioqrafiya olan romanda dənizçi Martinin cəmiyyətdə özünə yer tutma səyini oxuyuruq.

Varlı bir qıza aşiq olub özünü inkişaf etdirən İden eynən London kimi yazdığı əsərləri çap elətdirməyə çalışarkən dəfələrlə rədd edilib, yalnız qalır, istədiyini əldə etdikdə isə London kimi ona da arzuladığı burjua həyatı mənasız gəlir.

### *Ən yaxın dostu "Con Barleykorn"*

Məşhur yazıçının ölümündən 3 il əvvəl yazdığı "Con Barleykorn" əslində etiraf idi. Pivə və viski istehsalında istifadə edilən "arpa" sözünün ingilis dilindəki qarşılığı "barley"dən ilhamlanaraq baş qəhrəman yaratmışdı.

Adını ingilis xalq mahnısından alan əsər Londonun ilk içki təcrübələrindən tutmuş içkinin necə əhəmiyyətli hala gəldiyi dövrə qədər bütün olanlardan bəhs edir. Hətta C.London məşhur və varlı yazıçı olduqdan sonra da "Con Barleykorn"un arxasıyca qaçır.

### *Publisistika və ədəbiyyat əl-ələ*

C.London sadəcə romanlar və hekayələr yazmırdı. Eyni zamanda, kəskin müşahidə gücünə sahib publisist idi. 1904-1905-ci illərdə Rus-Yapon müharibəsində Koreya və Mancuriyaya cəbhə müxbiri olaraq getmişdi. 1906-cı ildə "Kolliers Vikli" jurnalında San-Fransiskodakı zəlzələ haqqında şahid qismində yazı yazdı. Onun jurnalistliyi ədəbiyyatçılığındanmı bəhrələnirdi, yoxsa tam tərsinə idi? Bu sualın cavabı bilinməsə də, doymaq bilməyən marağı jurnalistliyinə də ədəbiyyatçılığına da təkan verirdi.

Cek London 7 aprel 1900-cu ildə "Canavar oğlu"nun çap olunduğu gün dostu Bess Maddern ilə evləndi. Bir-birlərinə aşiq deyildilər. Onlarınkı daha çox məntiq evliliyi idi. İlk övladları Coan 15 yanvar 1901-ci ildə , ikinci övladları Bessi 20 oktyabr 1902-ci ilə anadan oldu. Cütlük 1904-cü ildə yollarını ayırdı.

London bir il sonra Çarmian Kitrec ilə evləndi. Onlar üçün "ruh əkizləri" kimi danışılırdı.

Cütlük övlad sahibi olmaq istəsə də, uşaqlarından biri doğuş əsnasında ölür.

### *Ailə başçısı və fermer*

Məşhur yazıçı 1910-cu ildə Kaliforniyada 26 min dollar qarşılığında ferma satın alır. İlk vaxtlar "Həyat yoldaşımın yanında ferma mənə dünyanın ən gözəl yeri kimi görünür" deyən C.London ferma ərazisini böyütməyə çalışırdı.

Yazıçı bir müddət çox vaxt ayırdığı, son dövrlərdəsə sıxılıb uzaqlaşdığı fermada da vəfat edib. Hazırda sözügedən ferma Cek London Əyalət Tarix Parkı adı altında qorunur.

### *Necə sosialist oldu?*

Cek London 20 yaşında sosializmi məimsəyir. "Necə sosialist oldum?" adlı məqaləsində də dediyi kimi, xalqın ən alt təbəqələrini daha yaxından gördükcə sosialist fikirləri yaranmağa başladı. Məktublarının bəzilərini "İnqilab üçün" olaraq imzalayırdı. Gəncliyində ABŞ-ı gəzərək danışıqlar aparıb, sosializm üçün dəstəkləyicilər toplamağa başlayıb. Hətta bu səbəbdən qısa müddət məhbusluq həyatı yaşayıb.

1929-cu ildə "Nyu-Masses" jurnalı onun Amerikan dünyasının o günə qədər yaratdığı ilk və yeganə proletar yazıçı olduğundan bəhs edirdi.

Cek London hələ 40 yaşındaykən, 22 noyabr 1916-cı ildə həyata gözlərini yumur. Ölümü haqqında üç fərziyyə var: böyrək çatışmazlığı, intihar və yüksək dozada morfin qəbulu. Məşhur yazıçının vəsiyyətinə uyğun olaraq cəsədi yandırılıb və "Öldüyüm vaxt küllərimin bu təpədə dincəlməsini istəyirəm" dediyi yerdə basdırılıb.

**Hazırda C.Londonun külləri həyat yoldaşı Çarmeinin külləri ilə birlikdə Koliforniyadakı Cek London Əyalət Tarix Parkındadır. Yazıçının məzarında tənha üslubunu xatırladan sadə, yosun tutmuş qaya parçası qoyulub.**